# Silahlı Qüvvələrimizin keçdiyi şərəfli yol qürurla işıqlandırılır

1992-ci ilin fevral ayında Azərbaycanın jurnalistika tarixinin səhifəsinə yeni "Xalq Ordusu" qəzetinin adı yazıldı. Sonrakı illər isə "Azərbaycan Ordusu" adı ilə fəaliyyətini davam etdirdi.




Həmin illərdə ordumuz hələ hərbi nəzəriyyələr əsasında formalaşmamışdı. Vahid komandanlıq olmadığından ərazilərimizi bir-biri ilə zəif əlaqəsi olan özünümüdafiə qüvvələri qoruyurdu. Belə bir vaxtda yaranmış hərbi mətbuatın da müəyyən çətinlikləri ortaya çıxırdı. Ölkədə təcrübəsinə istinad ediləsi hərbi mətbuat bazası yox dərəcəsində idi. Bu bazanı kövrək addımlarını atmaqla başlayan "Azərbaycan Ordusu" qəzeti özü yaratmalıydı.

Günlər keçdikcə qəzet yavaş-yavaş formalaşırdı. Həm hadisələrə operativ müdaxilə baxımından, həm də hərbi jurnalistika baxımından özünü büruzə verirdi. Qəzetin səhifələrində daha çox ön xətdən verilən materiallar üstünlük təşkil etsə də, arxa cəbhə də unudulmurdu.

1993-cü ilin əvvəllərində Azərbaycanda ciddi siyasi qarşıdurma yaranmışdı. Bu qarşıdurma ordu quruculuğuna da, döyüşlərə də mənfi təsir göstərirdi. Belə gərgin bir vaxtda böyük tarixi şəxsiyyət Heydər Əliyev xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtdı. Bundan sonra başqa sahələrdə olduğu kimi, ordu quruculuğunda da əsaslı dönüş yarandı, vahid komandanlıq formalaşdı. Ordu quruculuğu illərin sınağından çıxmış hərb elminin tələbləri əsasında aparıldı.

Bu sahədə həyata keçirilən uğurlu islahatlar "Azərbaycan Ordusu" qəzetinin fəaliyyətində də ciddi dönüş yaratdı. Qəzetin əməkdaşları tez-tez bölgələrə, ön xəttə ezamiyyətə gedir, səngərlərdə yurdumuza keşik çəkən əsgər və zabitlərdən müsahibələr alırdılar. Müxbirlər ezamiyyətdən geri döndükdən sonra yurdumuzun keşiyində dayanan hərbçilərlə olan söhbətləri müxtəlif janrlı yazılara çevirərək qəzetdə dərc etdirirdilər. Bu yazılar şəxsi heyətin mənəvi-psixoloji hazırlığına, vətənpərvərlik hisslərinin artırılmasına müsbət təsir göstərirdi.

Azərbaycanda ordu quruculuğu daim dövlətin diqqət mərkəzində olub. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Ulu Öndərin siyasi kursunu ordu quruculuğu istiqamətində də uğurla davam etdirir. Bu proses "Azərbaycan Ordusu"nun səhifəsində bütün dolğunluğu ilə öz əksini tapır.

İstər Azərbaycanda, istərsə də hərbi əməkdaşlıq etdiyimiz ölkələrdə keçirilən qarşılıqlı beynəlxalq təlimlərdə "Azərbaycan Ordusu" qəzetinin əməkdaşları da iştirak edirlər. Bu tədbirlərdən müxtəlif janrlarda məqalələr hazırlayır, keçirilən təlimin mahiyyətini açır, Azərbaycan hərbçilərinin peşəkarlığını, fədakarlığını yarışlarda qələbə qazanılmasında onların əzmkarlığını geniş işıqlandırır.

Hərb tariximizə Aprel döyüşləri kimi yazılmış 4 gün davam edən savaş da "Azərbaycan Ordusu" qəzetinin səhifələrində bütün dolğunluğu ilə əks olunub.

"Azərbaycan Ordusu" müharibə taleyi yaşayan qəzet kimi həmişə savaşan, döyüşən hərbçilərin yanındadır. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin Vətən müharibəsinin davam etdiyi günlərdə xalqa olan bütün tarixi müraciətlərini qələbə ovqatı ilə hərbçilərə çatdırırdı.

"Azərbaycan Ordusu" otuz ildən çoxdur ki, müqəddəs yolu ilə inamla addımlayır. Həftədə iki dəfə oxucuları ilə görüşə gəlir. Qəzet bu gün orduda aparılan islahatlardan, Zəfərlə başa çatan 44 günlük Vətən müharibəsində, "Qisas" əməliyyatında, 19-20 sentyabr antiterror tədbirlərində iştirak etmiş, müxtəlif orden və medallara layiq görülmüş zabit və əsgərlərin qəhrəmanlığından yazır. "Azərbaycan Ordusu" qəzetinin əməkdaşları onun rəhbərliyinin verdiyi tapşırıqlara uyğun olaraq Silahlı Qüvvələrimizin keçdiyi şərəfli tarixi yollarından yazır. Şəhid ailələrinə qayğı da daim qəzetin diqqət mərkəzindədir.

***M.VAHİD,***
***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 13 fevral, № 32.- S.11.